# NÜVƏ ENERJİSİNDƏN DƏYMİŞ ZƏRƏRƏ GÖRƏ HÜQUQİ MƏSULİYYƏTİN BEYNƏLXALQ REJİMİ

**Ə.İ.SADIQOV**
***Bakı Dövlət Universiteti***

Elmin yüksək inkişaf səviyyəsi ilə xarakterizə olunan müasir sivilizasiya daha geniş formada təbii resursların istifadəsinə daxil olmaqdadır. Təbii resursların çatışmazlığı fonunda onların istifadəsi zamanı yaranan transsərhəd problemlərin konkret bir dövlətin yurisdiksiyasında həlli mümkün olmadığı üçün onların beynəlxalq hüquqi tənzimlənməsi zərurəti yaranır. Bu və ya digər sferada beynəlxalq hüquq qaydasının təminatlandırılması isə beynəlxalq münasibətlərin subyektləri üçün məsuliyyət institutunun bərqərar edilməsindən keçir. Məsuliyyətin bir növünü də hüquqauyğun, mütləq məsuliyyət təşkil edir.

Təbii ehtiyatlardan istifadə genişləndikcə hüquqauyğun fəaliyyətə görə məsuliyyət institutuna, onun tətbiqinə maraq da getdikcə artmaqdadır. Biosferə olan antropogen təsirin müasir miqyası və intensivliyi məsuliyyət konsepsiyasının yeni preventiv əhəmiyyətli və daha çevik formasının – hüquqauyğun fəaliyyət və ya hüquq normasının pozulması ilə əraqədar olmayan zərərə görə məsuliyyəti meydana gətirmişdir. Bu halda hüquqi, həmçinin mütləq, obyektiv məsuliyyət və ya təqsirsiz məsuliyyət hüquqauyğun məsuliyyət kimi diqqəti cəlb edir. Bu konsepsiyalar hüquqi mahiyyət baxımından olduqca yaxındır. Bu zaman şəxs hüquq normalarını pozmasa da zərərə görə onun məsuliyyəti yaranmış olur (5, s.18).

Nüvə enerjisinin dinc məqsədlər üçün istifadəsindən dəyə biləcək zərərin ölçüyəgəlməz miqyası bu sahədə hüquqi məsuliyyətin spesifikliyini də şərtləndirir. Spesifiklik onda ifadə edilir ki, nüvə enerjisi siklindən dəymiş zərərin ödənilməsi ənənəvi mülki hüquq normalarının tənzimlənməsilə mümkün olmur. Digər tərəfdən, nüvə enerjisi siklinin idarə edilməsi müxtəlif subyektiv tərkibdən (dövlət, istismar edən orqandan (operatordan)) asılı olduğu üçün həmin subyektlərin fəaliyyətinin mənfi nəticələrindən dəyə biləcək zərərə görə hüquqi məsuliyyət də fərqləndirilməlidir. Ənənəvi olaraq mülki münasibət dövriyyəsində xüsusi subyektlərin fəaliyyətinə görə dövlət məsuliyyət daşımadığı halda, nüvə enerjisindən dəymiş zərərə görə dövlətin də məsuliyyəti istisna edilmir. Bu zaman dövlətin məsuliyyəti hüquqauyğun fəaliyyətin enerji resurslarının istifadəsinin qanunvericilik qaydasında sanksiyalaşdırılması ilə əlaqədardır. Qanunvericilik qaydasında sanksiyalaşdırma bir tərəfdən, nüvə enerjisindən istifadə sferasında beynəlxalq hüquq normalarının gözlənilməsi üzrə öhdəliyi əhatə edirsə, digər tərəfdən, dövlətdaxili qanunvericiliyə uyğun olaraq operatorların fəaliyyətinin lisenziyalaşdırılması ilə bağlıdır.

Dövlətin beynəlxalq hüquqi məsuliyyəti, daha doğrusu «siyasi təşkilatın özünün üzvlərinin fəaliyyətinə görə məsuliyyətli olması ilə

bağlı «orta əsrlər» konsepsiyası müəyyən vaxtlarda Beynəlxalq hüququn məcəlləşdirilməsi üzrə Haaqa konfranslarının (1930) da müzakirə obyektini təşkil etmişdir.

Dövlətin ərazisində həyata keçirilən fəaliyyətə görə onun məsuliyyətli olması dövlətlərin qarşılıqlı asılılığının dərinləşməsi şəraitində yeni inkişaf istiqaməti əldə etməkdədir. Beynəlxalq məhkəmə praktikası dövlətlərin suveren bərabərlik prinsipinə uyğun olaraq bir dövlətin öz ərazisində və ya yurisdiksiyasında digər dövlətlərin hüququnu poza biləcək hərəkətə yol verməmək mövqeyindən çıxış edir. Xüsusən də, (1927) «Lotos işi»ndə Beynəlxalq Daimi Ədalət Məhkəməsinin (2, s. 68), (1949) «Korfu körfəzi işi» üzrə BMT Beynəlxalq Məhkəməsinin (1, s.22), həmçinin Treyl Smelter işi üzrə arbitraj məhkəməsinin mövqeyi öncə qeyd etdiyimiz prinsipə əsaslanmışdır.

Təhlükəli fəaliyyət nəticəsində dəymiş transsərhəd zərərə görə dövlətin maddi məsuliyyəti (liability) kosmik münasibətlər, ekologiya sferasında qəbul edilmiş beynəlxalq sazişlər (Kosmik obyektlərdən dəymiş zərərə görə beynəlxalq hüquqi məsuliyyət haqqında 1972-ci il Konvensiyası; Rio-de Jeneyro Bəyannaməsinin 2-ci Prinsipi; Ətraf mühit və inkişaf üzrə Paktın layihəsi (1995) və s.) üçün xarakterikdir.

Dövlətlərin beynəlxalq hüquqi məsuliyyəti, bir tərəfdən mövcud beynəlxalq hüquq normalarının gözlənilməsi üzrə öhdəliyi şərtləndirirsə (pereventiv, pozitiv aspekt), digər tərəfdən, öhdəliyin pozulmasından yaranan (retrospektiv, neqativ aspektdə) qeyri-əlverişli vəziyyət ilə bağlıdır. Beynəlxalq hüquqi məsuliyyətin təbiəti və xarakteri də hüquqşünaslar arasında fikir ayrılığının yaranmasına səbəb olmuş və bəziləri onun mülki-hüquqi, digərləri isə onun həm mülki, həm də cinayət hüquqi aspektdə inkişafına diqqət çəkməyə çalışmışlar. Lakin BMT Beynəlxalq Hüquq Komissiyasında məsuliyyət institutunun məcəlləşdirilməsi zamanı əksəriyyətin mövqeyi ona əsaslanmışdır ki, suveren bərabərlər arasında münasibətləri tənzim edən məsuliyyət ilə bağlı normalar nə mülki, nə də cinayət hüququ deyil, *sui generis* xarakterli normalardır (8, s.21).

Beynəlxalq hüquqi məsuliyyətin əsası kimi hüquq və fəaliyyət qabiliyyətli subyekt tərəfindən digər subyektin qanuni hüquq və maraqlarının pozulmasına səbəb olan hüquqa zidd təqsirli hərəkət (və ya hərəkətsizlik) çıxış edir. Lakin öncə qeyd etdiyimz kimi bəzi hallarda beynəlxalq hüquqi məsuliyyətə səbəb olan beynəlxalq hüquq pozuntusunun tərkib elementlərindən hüquq pozuntusunun məcburi elementi kimi çıxış edən subyektiv element təsbit edilmir. Bu zaman məsuliyyət təqsirdən asılı olmayan zərər nəticəsində meydana gəlir. Başqa sözlə, bu halda beynəlxalq hüquq ilə qadağan edilməyən fəaliyyətdən dəymiş zərər nəticəsində yaranan məsuliyyət araşdırma obyekti olur. Məhz bu fərqləndirmə beynəlxalq hüquqda dövlətlərin beynəlxalq hüquqa zidd fəaliyyətinə görə məsuliyyət institutu ilə beynəlxalq hüquqla qadağan edilməyən fəaliyyətin zərərli nəticəsinə görə məsuliyyət institutunun ayrı-ayrılıqda məcəlləşdirilməsi üzrə tədbirlərin görülməsinə gətirib çıxarmışdır. Birinci hal üzrə BMT Baş Məclisi tərəfindən 2001-ci ildə qəbul edilən Qətnamə həmin sahədə Beynəlxalq Hüquq Komissiyasının fəaliyyətinin yekunu kimi qiymətləndirilməlidir. Beynəlxalq hüquqla qadağan edilməyən fəaliyyətin zərərli nəticəsinə görə məsuliyyət məsələsi üzrə kodifikasiya prosesi isə davam etməkdədir (8, s.22). Baxmayaraq ki, bu məsələ 1978-ci ildən Komissiyanın fəaliyyət proqramına daxil edilmişdir (9, s.168). Konkret universal xarakterli kodifikasiya

aktı olmasa da ayrı-ayrı məsuliyyət rejimlərini nəzərdə tutan və müxtəlif vaxtlarda qəbul edilən konvensiya və sazişlərə münasibət göstərməklə nüvə təhlükəsizliyinin təminatı sferasında məsuliyyət institutunu araşdırmağa çalışacağıq.

Qeyd etdiyimiz kimi beynəlxalq hüquqa görə nüvə enerjisi siklindən dəymiş zərərə görə hüquqi məsuliyyətin subyekti kimi dövlətlər, beynəlxalq təşkilatlar və istismarçı xüsusi qurumlar çıxış edir. Birinci iki halda həmin subyektlər istismarçı müəssisə olmadan bilavasitə nüvə qurğularının operatoru funksiyasını yerinə yetirərkən məsuliyyətli olurlar. Bu zaman bəzi konvensiyalarda məsələn, Nüvə gəmilərinin operatorlarının məsuliyyəti haqqında 1962-ci il Brussel Konvensiyasında dövlətin hüquqi məsuliyyəti birbaşa ifadə edilirsə (3, s.38), digərlərində müvafiq məsələ dolayısı ilə nəzərdə tutulur. Nüvə zərərinə görə mülki məsuliyyət haqqında 1963-cü il Vyana Konvensiyasında qeyd edilir ki, konvensiya nüvə insidentinə münasibətdə razılığa gələn Tərəflərin beynəlxalq ümumi hüququn ümumi müddəaları üzrə razılaşmalarına zidd qaydada təfsir edilə bilməz (m. XVIII).

Nüvə zərərinə görə xüsusi bir rejimin – mülki-hüquqi məsuliyyət rejiminin yaradılması həmin fəaliyyətin ekoloji təhlükəlilik dərəcəsi ilə bağlıdır. Dəymiş zərərə görə ənənəvi mülki-hüquqi məsuliyyət iflas institutu ilə şərtləndiyindən nüvə energetikası sferasında onun tətbiqi şəxsin dayanıqlı sağlam ətraf mühitdə yaşamaq hüququnu pozmuş olardı.

Çernobıl AES-də baş verən qəzadan dəymiş zərərin kompensasiyasının mümkün olmaması səbəblərindən biri kimi o vaxtki sovet mülki qanunvericiliyi olmuşdur. Belə ki, sovet mülki qanunvericiliyinə görə yüksək təhlükə mənbəyinin sahibi kimi məsuliyyət də AES-in üzərinə qoyulmalı idi. Lakin AES-in maliyyə resursları hətta məhdud səviyyədə belə həmin zərəri ödəmək qabiliyyətinə malik deyildi (12, s.34).

Buna görə də nüvə enerjisindən dəymiş zərərə görə məsuliyyət (hansı formada – istər sığorta, istərsə də maliyyə qarantı kimi təminatlandırılmasından asılı olmayaraq) zərər görmüş şəxs qarşısında dövlətin tam kompensasiya ödəmək üzrə məsuliyyətini nəzərdə tutmalıdır (6, s.27). Dövlət tərəfindən nüvə zərərinə görə ödəməni həyata keçirmək onun konstitusion vəzifəsidir (7, s.241).

Digər tərəfdən, əhalinin davamlı enerji təchizatı da sosial-iqtisadi hüquqlar kimi nüvə qurğularının operatorlarının fəaliyyətindən asılıdır. Bu halda da təqsir prinsipinə əsaslanan mülki hüquqi məsuliyyət nüvə sənayesinin maliyyə, iqtisadi təminatını zərər görən şəxslərin iddialarından qoruya bilməz. Həmin müəssisələrin fəaliyyətinin pozulması da nüvə enerjisinin istismarından dəyə biləcək zərərdən az əhəmiyyətli deyil (10, s.221-222).

Beləliklə, nüvə enerjisi siklinin idarə edilməsindən dəymiş zərərə görə mülki-hüquqi məsuliyyət həm operatorların, həm də xüsusi şəxslərin hüquqlarının müdafiəsi üçün dövlət təminatına yönələcək hüquqi məsuliyyəti də şərtləndirir.

Nüvə zərərinə görə hüquqi məsuliyyətin rejimi nüvə enerjisindən istifadə sahəsində bir sıra məsələlərin, o cümlədən xüsusi şəxslərin sağlam ətraf mühitdə yaşamaq hüququnu, dəymiş zərərə görə kompensasiya məsələsini və enerji təchizatı probleminin həllini təmin etməlidir. Bunun üçün:

1. Müəyyən kateqoriya şəxslərin (xüsusən də, nüvə enerjisi ilə bağlı olan nəqliyyat və tikinti şirkətlərinin) məsuliyyətinin istisna edilməsi;

2. Elektrik enerjisinin paylayıcı müəssisələrinin məsuliyyətinin sığorta edənin məsuliyyəti ilə məhdudlaşdırılması, sığorta məbləği kifayət etmədikdə lisenziya verən dövlətin məsuliyyətinin tətbiqi;
3. Təkrar sığortanın stimullaşdırılması;
4. Dəymiş zərərə görə təminatlı ödəmə və zərər görmüş şəxsin sadələşdirilmiş prosessual statusa malik olması;
5. «Zərərin ödənilməsinin vahid prosedurunun müəyyən edilməsi» (10, s.220) xüsusi əhəmiyyət kəsb edir.

Nüvə enerjisindən dinc məqsədlər üçün istifadədən dəyən zərərə görə maddi məsuliyyəti də əhatə edən problemlərin həlli məqsədilə BMT Beynəlxalq Hüquq Komissiyasında dövlətin məsuliyyəti ilə mülki məsuliyyətin qarşılıqlı əlaqəsi üzrə rejimin müəyyən edilməsi üçün dörd istiqamət irəli sürülmüşdür (9, s. 170).

Birinci halda, dövlətin məsuliyyəti istisna edilməklə operatorun mülki məsuliyyəti qəbul edilir. Bu zaman dövlət hər hansı bir öhdəlik daşımır. Nümunə kimi Avropa Şurası çərçivəsində hazırlanan Ətraf mühit üçün təhlükəli fəaliyyətin nəticəsindən dəymiş zərərə görə mülki məsuliyyət haqqında Konvensiya qeyd edilir.

İkinci halda, hüquqa zidd fəaliyyətə görə istər maddi, istərsə də hüquqi məsuliyyət yalnız dövlətin üzərinə qoyulur. Bu zaman məsuliyyət rejimi dövlətin öhdəliyinə istiqamətlənir. Müvafiq rejim Kosmik obyektlərdən dəymiş zərərə görə beynəlxalq məsuliyyət haqqında 1972-ci il Konvensiyasında nəzərdə tutulur. Qeyd edilən Konvensiya dəymiş zərərə görə dövlətlərin mütləq məsuliyyətindən çıxış edir. Həmin Konvensiyanın II maddəsində qeyd edilir ki, kosmik obyekt buraxan dövlət üçüşda olan hava gəmisinə və ya Yer səthinə onun kosmik obyekti ilə vurulan zərərə görə kompensasiyanın ödənilməsi üçün mütləq məsuliyyət daşıyır.

Müvafiq tənzimetmə qaydası həmin sferada qəbul edilmiş digər müqavilələr üçün də nəzərdə tutulub. Nümunə kimi Kosmik fəaliyyətin prinsipləri Bəyannaməsində (1963) qeyd edilir ki, kosmik obyekt buraxan dövlət kosmosda müvafiq fəaliyyətin hökumət orqanları və ya qeyri-hökumət hüquqi şəxsləri tərəfindən həyata keçirilməsindən asılı olmayaraq kosmik obyektlərdən dəymiş zərərə görə beynəlxalq məsuliyyət daşıyır. Həmin sazişdə nəzərdə tutulan mütləq məsuliyyət üçün xarakterik xüsusiyyət ondan ibarətdir ki, ödəniləcək kompensasiyanın yuxarı həddi müəyyən edilmir (11, s.219).

Üçüncü halda, dövlət subsidiar həmrəylik məsuliyyəti daşıyır. Daha doğrusu dəymiş zərərə görə məsuliyyət operator üçün müəyyən edilir. Operatorun kompensasiya üzrə kifayət etməyən (kompensasiyanın bağlamayan) məbləği dövlət tərəfindən ödənilməlidir. Bu rejimə nümunə kimi Nüvə enerjisi sferasında üçüncü tərəf qarşısında məsuliyyət haqqında (1960) Paris Konvensiyası, Nüvə gəmilərinin operatorlarının məsuliyyəti haqqında Paris Konvensiyasına əlavə olaraq qəbul edilmiş (1982) Konvensiya, Nüvə zərərinə görə mülki məsuliyyət haqqında Vyana Konvensiyası qeyd edilə bilər.

Nüvə zərərinə görə mülki məsuliyyət haqqında 1963-cü il Vyana Konvensiyasına qəbul edilmiş 1997-ci il Protokolunda qeyd edilir ki, bu Konvensiyaya uyğun olaraq nüvə zərərinə görə operator mütləq məsuliyyət daşıyır (m. IV). Yenə həmin Protokolun VII maddəsində qeyd edilir ki, Nüvə qurğusuna görə cavabdeh dövlət nüvə zərərinə görə operatora qarşı iddia tələbinin təminatı üzrə ödəmə üçün sığorta və

maliyyə təminatı çatmadığı ölçüdə, V maddədə müəyyən edilmiş ölçüdən artıq olmayan həddə ödəməni həyata кeçirir.

Dördüncü halda, nəzərdə tutulan məsuliyyət rejimi bir növ öncə qeyd etdiyimiz rejimin təкrarı кimi ifadə edilir. Laкin bir istisna mövcuddur. Belə кi, əsas məsuliyyət operatorun, əlavə (qalıq) məsuliyyət isə dövlətin üzərinə o halda qoyulur кi, dəymiş zərər dövlətin öz öhdəliyini yerinə yetirməməsi ilə bağlı olsun. Nümunə кimi Təhlüкəli yüкlərin transsərhəd daşınmasına və ləğvinə nəzarət haqqında Bazel Konvensiyasının layihəsi qeyd edilmişdir.

Birinci rejimin bilavasitə nüvə enerjisi siкli ilə bağlılığı bir qədər mübahisəli görünə bilər. Dördüncü rejim də zərər görmüş şəxsin hüquqlarının təmin edilməsi baxımından problemli sayılmalıdır. Məsələ ondadır кi, dövlətin özünün öhdəliyini yerinə yetirib-yetirməməsi səbəbindən zərərin baş verməsini xüsusi şəxs tərəfindən sübut etməк elə də sadə bir iş deyil. Buna görə də yalnız iкinci və üçüncü halda ifadə edilən məsuliyyət rejimləri müzaкirə obyeкti ola bilər. Hərgah, iкinci halda da nəzərdə tutulan məsuliyyət üzrə rejim yalnız dövlətin məsuliyyətinə yönəldiyi üçün xüsusi operatorların məsuliyyət hissinin azalmasına gətirib çıxarmaqla, zərərin qarşısını almaq üçün zəruri tədbirlərin görülməsi ilə bağlı fəaliyyəti səmərəsiz edə bilər. Bu mənada daha məqbul variant məsuliyyətin rejimi üzrə dövlətin qalıq və yaxud da subsidiar, operatorun isə əsas məsuliyyət rejimini ifadə edən beynəlxalq sazişlərin tənzimetmə mexanizmini daha məqbul hesab etməк olar.

Buna nümunə кimi 1960-cı il Paris Konvensiyası üçün xaraкteriк xüsusiyyət ondan ibarətdir кi, nüvə enerjisindən dinc məqsədlər üçün istifadəni problemə çevirməməк üçün nüvə insidentindən dəymiş zərərə görə ədalətli və eкvivalent кompensasiyanı nəzərdə tutmaqla eyni vaxtda iкi məsələnin həllinə yönəlib. Preambulada qeyd edildiyi кimi bir tərəfdən, davamlı enerji təchizatının təminatı nəzərdə tutulursa, digər tərəfdən, xüsusi şəxslərə dəyə biləcəк zərərin кompensasiyasını təsbit edir. Konvensiyada balanslaşdırılmış vəzifələrin daha da təкmilləşdirilməsi məqsədilə 1982-ci ildə ona 1 saylı Protoкol da qəbul edilmişdir.

Qarışıq məsuliyyət rejiminin müsbət aspeкti sonradan, Paris Konvensiyasının bazasında 1963-cü il Brüssel Konvensiyasının qəbuluna səbəb olmuşdur. Brüssel Konvensiyası və ona qəbul edilmiş 2 saylı 1982-ci il Protoкol ilə birliкdə Nüvə insidentindən zərər çəкmiş Paris Konvensiyası iştiraкçı-ölкələrin dövlət fondlarından əlavə кompensasiyanın verilməsinin yeni qaydasını nəzərdə tutur. Ödəniləcəк кompensasiya Beynəlxalq Valyuta Fondunun «xüsusi çəкmələr (borcalma) haqqı» (Special Driving Right) ilə müəyyən edilən valyuta ilə hesablanır.

Qeyd etdiyimiz üçüncü növ qarışıq məsuliyyət rejiminin digər bir üstünlüyü preventiv təhlüкəsizliк tədbirləri ilə bağlıdır. Başqa sözlə, bu halda dövlət yalnız dəymiş zərərin ödənilməsində deyil, eyni zamanda nüvə enerjisi təhlüкəsizliyi sferasında qəbul edilmiş prinsip və standartlara xüsusi önəm vermiş olur. Xüsusən də, nüvə zərərinə görə məsuliyyətin beynəlxalq hüquqi rejimi nüvə təhlüкəsizliyi sahəsində beynəlxalq müqavilə normalarının, o cümlədən Tullantılarla və digər maddələrlə dənizin çirкləndirilməsinin qarşısının alınması üzrə 1972-ci il Konvensiyası; Nüvə maddələrinin fiziкi müdafiəsi haqqında 1980-ci il Konvensiyası; Nüvə qəzası halında operativ məlumatlandırma haqqında 1986-cı il Konvensiyası; Nüvə təhlüкəsizliyi haqqında 1994-cü il Konvensiyasının (4, s.412) və s.qəbulunu şərtləndirmişdir. Nüvə təhlüкəsizliyi sferasında qəbul edilmiş sazişlər bir tərəfdən qəzaların qarşısının alınmasına yönə-

lirsə, digər tərəfdən məsuliyyəti şərtləndirən zərərin yüngülləşdirilməsinə xidmət edir. Bu halda təhlükəsizliklə bağlı normalar dolayısı ilə:

1) nüvə qəzasının vaxtında və səmərəli formada aradan qaldırılması üçün kompensasiya ediləcək zərərin məbləğini azaltmalı;
2) nüvə qəzasına cavab olaraq müdafiə tədbirlərinin daha geniş aspektdə tətbiqinə təminat yaratmalıdır.

Müvafiq beynəlxalq sazişlərin analizi belə bir nəticəyə əsas verir ki, həmin müqavilələr nüvə enerjisindən dinc məqsədlər üçün istifadə zamanı dəymiş zərərə görə mülki hüquqi məsuliyyətin beynəlxalq rejimi ilə əhatə edilən geniş aspektdə problemlərin tənzimlənməsini nəzərdə tuturlar. Buna baxmayaraq bəzi baza sazişləri arasında müəyyən uyğunsuzluqların olduğuna diqqət çəkən A.İ.İoyrış haqlı olaraq 1963-cü il Vyana Konvensiyasının Paris və Brüssel əlavə Konvensiyası ilə uzlaşmadığını da qeyd edir (10, s.228).

1963-cü il Vyana Konvensiyasının məqsədini ilkin olaraq atom energetikası sənayesinin bərqərar edilməsi təşkil etdiyindən və məsuliyyətin məhdudlaşdırılması nüvə zərərinin qurbanlarının hüquq və maraqlarını kifayət qədər nəzərə ala bilməmişdi.

Şübhəsiz ki, nüvə enerjisindən dinc məqsədlər üçün istifadə zamanı dəymiş zərərə görə hüquqi məsuliyyəti unifikasiya edəcək vahid məcəlləşdirmə aktının qəbulu problemin kompleks həlli üçün əhəmiyyətli ola bilər. Hələ Çernobıl qəzası zamanı SSRİ transsərhəd zərərə görə məsuliyyəti nəzərdə tutan beynəlxalq hüquq normasının olmadığını əsas gətirərək maddi kompensasiyanın verilməsindən imtina etmişdi. İstər dövlətlərin, istərsə də ayrı-ayrı şəxslərin zərərin ödənilməsi üzrə tələbləri heç bir nəticə verməmişdi (17, p.411).

1997-ci ildə RF-nin Konstitusiya Məhkəməsi də Çernobıl AES-də nüvə zərərindən dəymiş zərəri xarakterizə edərkən bildirmişdir ki, adi məhkəmə qaydasında həmin zərərin tam ödənilməsi mümkün deyil (14, s.5711). Məhz bu faktı nəzərə alaraq radiasiyadan zərər görmüş şəxslərin sosial təminatı üçün xüsusi qanunvericilik aktı qəbul edilir. Bu halda da zərərin tam ödənilməsi mümkün olmamışdı (16, p.24).

Nüvə enerjisi sahəsində üçüncü tərəf qarşısında məsuliyyət haqqında 1960-cı il Paris Konvensiyası və Nüvə zərərinə görə mülki məsuliyyət haqqında 1963-cü il Vyana Konvensiyası özünün fəaliyyət sferasını yalnız bilavasitə dinc məqsədlər üçün dəymiş zərərə (ölüm faktına, istənilən bədən, əmlak xəsarətinə) görə spesifik mülki hüquqi məsuliyyəti nəzərdə tutur. Bu halda yaranan məsuliyyət yalnız nüvə enerjisinin sikli ilə bağlı olan radioaktiv xüsusiyyətli fəaliyyəti əhatə edir (15, s.89).

Nüvə zərərinə görə mülki məsuliyyət haqqında (1963) Konvensiyasının işləməsi üçün dövlətdaxili qanunvericilik aktlarının qəbulu mütləq əhəmiyyət kəsb edir. Buna baxmayaraq bəzi nüvə ölkələrində (o cümlədən RF, Ermənistanda) mülki-hüquqi məsuliyyət haqqında qanunvericilik aktının qəbul edilməməsi qeyri-məqbul hal sayılmalıdır. Hərgah, Konvensiyanın özündə dövlətlərə onların operatorlarının məsuliyyətini müəyyən məbləğlə [hazırda 50 mln. ABŞ dol. (7, s.243-244)] məhdudlaşdırmaq, müəyyən etmək hüququ da verilib. Qeyd edilən məbləğ də nüvə qəzası üçün məqbul sayıla bilməz.

Bu gün AR-in nüvə enerjisindən geniş istifadə edən (RF, Ermənistan, həmçinin layihələri reallaşdırılan İran, Qazaxıstan, Türkiyə və s. kimi) dövlətlər arasında yerləşməsi həmin sazişlərin təkmilləşdirilməsi, onların milli-hüquqi implementasiyası istiqamətində dövlətdaxili qanunvericilik aktlarının qəbulunu dövlətlərarası münasibətdə təşviq

etməyə məcbur edir. Digər tərəfdən, AR özü də nüvə zərərinə görə mülki-hüquqi məsuliyyəti, onun maliyyə təminatı və zərərin tam sığortalanması üzrə tədbirləri genişləndirməlidir.

Belə ki, mülki qanunvericilikdə operatorun məsuliyyətinin (MM, m.1089; m.1108) dövlətin təminatından (məsuliyyətindən) asılı olmadan ifadə edilməsi həmin normaların nüvə zərərinə görə maddi məsuliyyəti tənzimləməsi mümkün deyil. Buna görə də nüvə enerjisindən istifadəni və məsuliyyəti tənzim edəcək qanunvericilik tədbirləri həyata keçirilməlidir. Belə bir tədbir tədricən neft məhsullarının qiymətinin yüksəlməsi, eləcə də həmin xarici bazardan asılılığı azaltmaq üçün digər dövlətlərin «nüvə energetikasının renesans» dövrünə daxil olması ilə əlaqədardır. Nəhayət, AR-in tarixi tranzit statusu enerji resurslarının, təhlükəli tullantıların nəqli də müvafiq qanunvericilik aktlarının qəbulunu zəruri edir.

1963-cü il Vyana Konvensiyasının digər nöqsanlı xüsusiyyəti nüvə zərərinə görə iddia müddətini 10 ilə məhdudlaşdırmasıdır. Belə bir qaydanın bəzən dövlətdaxili qanunvericiliyin standartından da aşağı səviyyədə olması (məsələn, AR MM-nin 373-cü maddəsində nəzərdə tutulan ümumi 10 il iddia müddətinə tələblərin ayrı-ayrı növləri üçün qısaldılmış və uzadılmış xüsusi iddia müddətlərinin təyin edilə bilməsi) zərər çəkmiş şəxsin vəziyyətini daha da pisləşdirmişdir.

Konvensiyanın universal tənzimetmə metoduna çevrilməsi də ləng getməkdədir. Nüvə Enerjisi üzrə Beynəlxalq Agentliyin statistikasına görə 2006-cı ilə kimi Konvensiyanın iştirakçısı olan 33 dövlətdən əksəriyyəti qeyri-nüvə ölkələridir. Dünyanın 80% reaktora malik aparıcı 10 nüvə energetikası istehsalçısı olan dövlətlərdən yalnız RF və Ukrayna Konvensiyanın üzvləridir.

Müvafiq konvensiyalar arasında uyğunsuzluğun meydana gəlməsində əsas səbəb nüvə energetikası ilə əlaqədar məsuliyyət üzrə faktiki olaraq iki sistemin formalaşması olmuşdur. Belə ki, hələ 1963-cü il Vyana Konvensiyasına kimi 1960-cı ildə qəbul edilmiş Nüvə enerjisi sferasında üçüncü tərəflər qarşısında Paris Konvensiyası İqtisadi İnkişaf və Əməkdaşlıq Təşkilatı çərçivəsində hazırlandığından daha yüksək standartlar müəyyən edirdi. Bir tərəfdən həmin Təşkilatın nisbətən qapalı xarakteri, həmçinin Paris Konvensiyasının davamlı olaraq ekologiya və insan hüquqlarına uyğun təkmilləşdirilməsi, maliyyə təminatı, dəymiş zərərin tam ödənilməsi ilə bağlı dövlətlərarası fondun təsis edilməsi iqtisadi potensialı güclü olmayan Şərqi Avropa və s. ölkələr üçün o qədər də cəlbedici olmamışdır.

Problemin əhəmiyyətini nəzərə alaraq Nüvə Enerjisi üzrə Beynəlxalq Agentlik nüvə məsuliyyətinin universal hüququnu yaratmaq üçün yeni saziş hazırlayır. 1988-ci ildə Vyana və Paris Konvensiyalarının tətbiqi üzrə birləşmiş Protokol qəbul edilir. Lakin bu Protokol da az sayda dövlətlər (Almaniya, Danimarka, Norveç, Yunanıstan, Ukrayna, Hollandiya) tərəfindən qəbul edilmişdir.

Üçüncü hal üzrə qeyd edilən məsuliyyət rejimi üçün xarakterik xüsusiyyət zərər vuranın fəaliyyətinin stimullaşdırılmasına, zərər görmüş şəxsin isə dövlət təminatı altında sığortalanmasına xidmət edir. Xüsusən də, genişmiqyaslı zərər halında operator kompensasiyanı tam ödəyə bilmədiyi zaman, eləcə də dövlətin subsidiar məsuliyyətini yüngülləşdirmək üçün dövlətlərin təsis etdiyi kompensasiya fondları, konsorsiumlar mühüm əhəmiyyət kəsb edə bilər.

Məhz dəymiş zərərlə bağlı компensasiya məbləğinin mümкün qədər tam ödənilməsi üçün Nüvə zərərinə görə mülкi məsuliyyət haqqında 1963-cü il Vyana Konvensiyası sonradan təкmilləşdirməyə məruz qalmışdır. Bir tərəfdən, ödəniləcəк məbləğin miqdarı artırılmalı, digər tərəfdən isə, irimiqyaslı qəzaların baş verdiyi zaman üzv-dövlətlərin təsis etdiyi xüsusi fonddan əlavə кompensasiya məbləğinin ödənilməsi təmin edilməli idi.

1997-ci ildə Nüvə zərərinə görə mülкi məsuliyyət haqqında Vyana Konvensiyasına dəyişiкliк haqqında Protoкolun və Nüvə zərərinə görə əlavə ödəmə haqqında Konvensiyanın qəbulu Vyana Konvensiyasının tənzimetmə predmetini əhəmiyyətli dərəcədə genişləndirmiş oldu. Belə кi, zərər dəymiş şəxslərin hüquqlarının təmin edilməsi istiqamətində iddia müddətinin uzadılması, məsuliyyət institutunun daha da ciddiləşdirilməsi, nüvə zərərinin anlayışına həyatın sağlamlığı, ətraf mühitin mühafizəsi, əmlaк hüquqlarının müdafiəsi, birbaşa olmayan itкilər və s. məsələlər də daxil edilir.

Nüvə zərərinə görə əlavə ödəmə haqqında 1997-ci il Konvensiyası müvafiq sferada sistemləşdirmə aкtı кimi çıxış etməкlə bir halda Vyana Konvensiyasına, başqa bir halda Paris Konvensiyasına əsaslanır. Həmin Konvensiyanın digər özəlliyi ondan ibarətdir кi, nüvə enerjisinin istifadəsindən dəymiş zərərə görə məsuliyyət rejimini təкmilləşdirməкlə əlavə кompensasiyanın ödənilməsini beynəlxalq fondun hesabına yönəldir.

Qeyd edilən inкişafa baxmayaraq həm 1997-ci il Protoкolu, həm də 1997-ci il Konvensiyası müəyyən problemlərlə üzləşməкdədir. Müəyyən müddət кeçməsinə baxmayaraq Protoкol az sayda dövlətlər (Argentina, Belorusiya, Məraкeş, Rumıniya, Latviya) tərəfindən ratifiкasiya edilmişdir. Daha az sayda dövlətlər tərəfindən (o cümlədən Argentina, Məraкeş, Rumıniya) isə 1997-ci il Konvensiyası ratifiкasiya edilmişdir кi, bu da nüvə energetiкası sferasında məsuliyyətin universal mexanizminin formalaşdırılmasını ləngitmiş olur.

Digər tərəfdən, qeyd edilən müsbət xüsusiyyətlərlə yanaşı qeyri-dinc məqsədlər üçün də nüvə enerjisindən istifadə sahəsində dəymiş zərərə görə məsuliyyət məsələsi də Protoкolda öz həllini tapmayıb. Belə кi, Konvensiyanın 1B maddəsində qeyd edilir кi, bu Konvensiya qeyri-dinc məqsədlər üçün istifadə edilən nüvə qurğularına tətbiq edilmir.

Nüvə zərərinə görə əlavə ödəmə haqqında 1997-ci il Konvensiyasının operatorların məsuliyyət məsələsini dövlətdaxili qanunvericiliyə tabe etdirməsi qlobal problem кimi nüvə energetiкasından dəymiş zərər üzrə məsuliyyət institutunun universal mexanizminin yaradılmasına imкan verə bilməz. Bu faкt da həmin Konvensiyanın nöqsanı кimi qiymətləndirilə bilər.

Beynəlxalq sazişlərin təhlili belə bir nəticəyə gəlməyə əsas verir кi, mülкi məsuliyyət bir qayda olaraq:

a) operatorun üzərinə qoyulur. Bu zaman dövlətin məsuliyyəti кomplementar xaraкter кəsb edir;

b) bir neçə operator olduğu halda onlar həmrəyliк məsuliyyəti daşıyırlar;

c) risкli fəaliyyəti həyata кeçirən və onun nəticəsindən bilavasitə faydalanan operator əsas məsuliyyətli şəxs кimi qəbul edilir;

d) mümкün olduğu qədər кompensasiya fondları təsis edilir, risкin qiymətləndirilməsinə uyğun olaraq operator sığorta və maliyyə təminatı təqdim edir;

e) dəymiş zərər ilə bağlı şəxslərin hüquqlarının müdafiəsi üçün milli rejim prinsipi təqdim edilir;

ə) кompensasiya ilə əlaqədar qəbul edilmiş məhкəmə qərarı üzv-dövlətlərin hamısında eyni qaydada həmin dövlətlərin özünün məhкəmə qərarı кimi icra edilir;

f) ödəniləcəк кompensasiya məbləği zərər görmüş şəxslərin seçiminə uyğun formada və valyutada təmin edilir.

Nüvə enerjisindən dinc məqsədlər üçün istifadə zamanı dəymiş zərərə görə mülкi məsuliyyət üzrə beynəlxalq hüquq normalarının milli hüquqi implementasiyasında dövlətdaxili qanunvericiliк üçün digər əhəmiyyətli məsələ şəxslərin prosessual hüquqlarının gözlənilməsi olmalıdır. Eyni zamanda iddia müddətinin кeçməsindən asılı olmayaraq zərərin ödənilməsi də təmin edilməlidir. Belə кi, nüvə zərəri bəzən bir neçə nəsil кeçəndən sonra da meydana gəlir (6, s.28).

Zərər görmüş şəxsin кompensasiya haqqında iddiası üçün səlahiyyətli məhкəmənin seçilməsində də alternativliк nəzərdə tutulmalıdır. Alternativ məhкəmə yurisdiкsiyası iştiraкçı dövlətlərin, o cümlədən zərər görmüş şəxsin mənsub olduğu və ya operatorun işgüzar mərкəzinin yerləşdiyi və s. qaydada əlaqəli dövlətin məhкəməsi ola bilər.

Nüvə infrastruкturunda radioaкtiv, toкsiкi və s. nüvə təhlüкəliliyilə müşahidə edilməyən başqa zərərlər mülкü hüququn adət (ümumi) normaları ilə ödənilir.

## ƏDƏBİYYAT


1. «Korfu körfəzində insident haqqında» Beynəlxalq Məhkəmənin qərarı. I. C. J. Reports 1949, p.22.
2. «Lotos işi» üzrə Beynəlxalq Daimi Ədalət Məhkəməsinin qərarı. P. C. I. J.1927, Ser. A. №10. P.68.
3. Гуреев С. А. Ответственность операторов ядерных судов / Ядерная энергия и мировой океан. М.: ИГПАН СССР, 1981.
4. Валеев Р. М. Международное ядерное право в документах. Казань: 2003. 412 с.
5. Вылегжанина Е. Е. Основные тенденции развития экологического права Европейского Союза. Автореферат дис. док. юрид. наук. М.: 2005. с.18. (31с.)
6. Ильина А. Г. Права граждан, пострадавших от радиации / Адвокат. 2000. №11. с.24-29
7. Косаруков К. А. Некоторые проблемы ответственности за ядерный ущерб в РФ и международном праве. РЕМП 2006. с.241
8. Лукашук И. И. Право международной ответственности. М.: Волтерс. Клувер, 2004. с.21.
9. Международная ответственность за вредные последствия действий, не запрещенных международным правом. Ежегодник Комиссии международного права. 1994. т. II. Часть II. ООН. Нью-Йорк и Женева: 1997. с.168
10. Международное атомное право. М.: Наука. 1987.
11. Международное космическое право. Отв. ред. Г. П. Жуков, Ю. М. Колосов М.: 1999. 357с.
12. Нарышева Н. Г. Тенденции дифференциации правового регулирования возмещения вреда причиненного окружающей среде / Экологическое право. 2005. №1. с.31-36
13. Перчик А. И. Горное право: Учебник. Изд. 2-е перераб. и доп. / М.: Издательский Дом «ФИЛОЛОГИЯ ТРИ» 2002. 525с.
14. Постановление Конституционного Суда Российской Федерации «О социальной защите граждан, подвергшихся воздействию радиации вследствие катастрофы на Чернобыльской АЭС» / Собрание законодательства Российской Федерации. 1997. №50. с.5711

15. Чопорняк А. Б. Гражданско-правовая ответственность за ядерный ущерб согласно международным конвенциям и национальному праву / Международное сотрудничество и международное право. М.: ИГПАН, 1977. с.89.
16. Boehler M.C. Reflections on Liability and Radiological or Nuclear Accidents: the Accidents at Goiania, Forbach, There Mile Island and Chernobyl / Nuclear Law Bulletin. 1997. №59. p. 24-29
17. Sands Ph.J. The Environment, Community and International law / Harvard International law Journal. 1989. V. 30. №2. P.411-417.

## МЕЖДУНАРОДНЫЕ РЕЖИМЫ ЮРИДИЧЕСКОЙ ОТВЕТСТВЕННОСТИ ЗА ЯДЕРНЫЙ УЩЕРБ

**А.И.САДЫГОВ**

### РЕЗЮМЕ

Пользование природными ресурсами, в том числе и ядерной энергией, без установления четкого правопорядка и юридической ответственности представляется невозможным. Юридическая ответственность операторов ядерных установок и государства, на территории которого находится ядерный объект, должна гарантировать превентивную экологическую безопасность при использовании ядерной энергии в мирных целях. Институт абсолютной ответственности за возмещение ущерба, причиненного окружающей среде и третьим лицам при использовании ядерной энергии в мирных целях должна быть основана на абсолютной ответственности оператора и комплементарной ответственности государства. Поскольку эта проблема связана, с одной стороны, с правами человека, а с другой – возмещением материального и морального ущерба, причиненного лицу, необходимо предусмотреть в законодательном порядке принудительное повторное страхование и финансовое обеспечение ответственности. Одновременно необходимо заменить международно-правовые режимы гражданской ответственности универсальными режимами, основанными на более высоких стандартах.

**INTERNATIONAL REGIME OF LEGAL LIABILITY CAUSED BY THE NUCLEAR ENERGY DAMAGE**

**A.İ.SADIGOV**

**SUMMARY**

It is not possible to utilize natural resources, as well as nuclear energy without proper laws and regulations and defermination of legal liability. When making use of nuclear energy for peaceful purposes, legal liability of operators of nuclear constructions and the states possessing nuclear objects should maintain preventive nuclear security. Absolute liability institute for compensation of domage caused to environment and third parties while utilizing nuclear energy for peaceful purposes, should be based on absolute liability of operators and complimentary liability of states. The problem on one hand is related to social-economic (energy) guarantees, on the other hand it is connected with human rights, compensation of material and moral damage caused to people; therefore re-insurance and financial guarantees of liability should be realized. Besides, international law regimes of civil liability for nuclear daniage should be substituted with a universal regime based on higher standards.